**UOT 76**

**Gülnaz Mədətova**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**E-mail: gulnazmadatova@gmail.com**

# FƏRMAN QULAMOVUN YARADICILIĞINDA MƏKAN TƏRƏNNÜMÜNÜN BƏDİİ İFADƏSİ

**Xülasə:** Məqalədə istedadlı Azərbaycan rəssamı Fərman Qulamovun yaradıcılığının əsas xüsusiyyətləri, məkan təsviri araşdırılmışdır. Rəssamın yaradıcılığına xas olan bir çox əsərlərdə bədii təhlil öz əksini tapıb və məqaləyə marağı artırıb. Belə əsərlərə “Mənzərə”, “Gecə”, “Səhər”, “Günaydın”, “Yeni gün” və s. misal verə bilərik. Təbii landşaftın, məkanın təbii rənglərinin sakit tərənnümü – mənzərə əsasında Fərman Qulamovun əsərlərinin əsas xarakterik xüsusiyyətidir.
**Açar sözlər**: rəssam, mənzərə, məkan, rəngkarlıq, rəng, çalar.

Azərbaycan rəssamlarının yaradıcılığında sıx rastlanan mənzərə janrının bədii xüsusiyyətləri hər bir sənətkarın fəaliyyətində fərqli formalarla təzahür etmişdir ki, bu fərdiyyətin əvəzsiz nümunələri Fərman Qulamov yaradıcılığında da tamaşaçı düşüncəsinə hakim kəsilməkdədir.

Müasir incəsənətdə bir istiqamət olan “formal rəngkarlıq” stilində həll edilmiş mənzərə əsərlərində Fərman Qulamov elementlərin, detalların birbaşa real formasını deyil, onların formal quruluşunu xüsusi yaradıcılıq xüsusiyyətləri ilə canlandırmağı bacarırdı. Müasir sənətin ənənələrindən məharətlə bəhrələnən istedadlı rəssam mənzərələrində kəskin, təzad doğuran rəng həllini çox zaman eyni rəngin müxtəlif çalarlarından, onların isti və soyuq tonlarından istifadə edərək həll edirdi. Bu cür rəng münasibətinin tablodakı əksi, sənətkarın çalarların xarakterini duyması, onları bir-biri ilə əsərin ruhuna görə uyğunlaşdırması hər bir sənət əsərində mükəmməl şəkildə tamaşaçı qarşısına çıxır. Belə tablolardan biri də “Landşaft” adlanır. Rəssamın eyni adlı iki əsəri vardır. Tablolar arasındakı böyük fərq onların bədii xüsusiyyətləri ilə yanaşı, daşıdığı məna, fəlsəfi dəyəri ilə də izah edilir.

Birinci tabloda təzad sadəcə rənglərin, çalarların həlli ilə deyil, eyni zamanda təbiətin həm təmkini, həm də dinamikasının eyni anda əks edilməsi ilə əks edilir. Tablo mənzərəçiliyin realistin tərənnümündən uzaq rəssamın məhz daxili aləmi ilə üst-üstə düşən məkan tərənnümünün formal elementlər vasitəsilə təsvirinə yönəlmişdir. Konkret mühitin ilk baxışda aydın qavranılmasının əksinə olaraq tamaşaçısından dərin düşüncə və intellekt tələb edən əsərin mahiyyətində dayanan əsas məqsəd gecə və gündüz arasındakı təbiətə məxsus rənglərin har-

monik ifadəsinin verilməsidir. Əsərdə qara, narıncı, sarı kimi rənglərin müxtəlif çalarlarından istifadə edilmişdir.

Rəssam öz əsərini "Landşaft" adlandırmaqla bütün diqqəti insan amilinin də iştirak etdiyi təbiət mənzərəsinə yönəldərək düşüncələri daha dərinə varmağa məcbur edir. Qala tipli qədim tikilinin qarşı səhnənin qaranlığından sonra gələn alov kimi parlamasını rəssam xüsusi işıq atışları ilə, səhərə yaxın olan bir günün zaman kəsiyində, işıq və qaranlığın bir-birinə hələ adaptasiya olmadan kəskin rastlaşması ilə təcəssüm etdirmişdir. Həmin səhnə insanı öz üzərindəki təsvir mücərrədliyinə cəlb edir. Bu mücərrədlik heç də formaların dərkedilməzliyi, mənzərənin qavranılmasında fikirlərimizi zəbt edən cavabsız sualların meydana gəlməsi deyil, həyat, yaşam, yaranış haqqında yaradıcı təfəkkürün daha dərin qatlara varmasıdır. Əsərdə rəng, işıqlandırma, tekstura eyni zamanda həm harmoniya, həm də tərs bir uyğunsuzluğun simbioz təəssüratını yaradır. Simbioz iki fərdin bir mühitdəki qarşılıqlı münasibətidir ki, əsərdə bu münasibət həm uyğunluq, həm də uyğunsuzluq, bir-birinə zidd olan iki bədii ifadənin eyni mənzərəni birgə xarakterizə etmə cəhdi ilə şərtlənir. Əsərdə sanki təbiətin obrazlaşmış mistik forması təsvir edilmişdir.

Tabloda iri gövdəli ağacın bir hissəsi əsərin sol hissəsində verilərək sanki tamaşaçının daha aralıdakı əsas mənzərəyə bu ağacın arxasından tamaşa edirmiş kimi bir təəssürat yaradır. Torpağın, yerin qara tonları, ara-sıra verilən tonal ləkələrin vasitəsilə digər elementlərin formal quruluşu yenicə doğmaqda olan günəşin hələ ətrafa yayılmağa imkan tapmamış parıltısını xüsusi qabarıqlıqla nəzərə çatdırır. Sənətkar sanki qısa müddətdə, bu ani məqamı tutaraq onu kətan üzərinə köçürməyi bacarmışdır. Əsərdə gecənin sakitliyini qəfil pozan sübh çağının aləmə haray salması kəskin təzad yaradaraq dinamik şəkildə öz əksini tapmışdır. Burada dinamizm hər hansı bir detalların və yaxud obrazın hərəkəti ilə deyil, məhz rəng oyunlarının, işıq sıçrayışlarının ani partlamaları ilə həyata keçirilmişdir.

Rəssamın eyniadlı digər tablosunda birinci əsərin aqressiv tonlarından fərqli olaraq daha sakit, insan gözünün alışdığı adi zamanların çalarları diqqəti özünə cəlb edir. Təbii landşaftın, məkanın öz təbii rənglərində sakit və təmkinli, eyni zamanda saf təravətinin verilməsində rəssam əsasən yaşıl tonların müxtəlif çalarlarından məharətlə istifadə etmişdir.

Torpağı, canlı aləmi, yaşıllığı, dağları, təpələri qarışıq şəkildə canlandıran rəssamın əsərində təbiət elementlərinin harmoniyası isti və soyuq, açıq və tünd kimi bir-birinə əks olan uğurlu əlaqələndirilməsində öz təcəssümünü tapmışdır. Ön hissənin bir qədər boşluqda qalması arxa hissənin daha aydın qavranılması üçün zəmin yaratmış, rəssamın dərin müşahidəçi qabiliyyətinin təsdiqi kimi qarşımıza çıxmışdır.

Qeyd edilən hər iki əsər özünün qalın yaxıları, sərt rəng vuruşları ilə fərqlənir.

Fərman Qulamovun mənzərə yaradıcılığına aid əsərləri sırasına daxil olan “Gecə” tablosu özünün dərin məna-dəyəri ilə diqqəti cəlb edir. İstedadlı rəssam burada gecənin sükutuna qərq olan köçərilərin dinamik gününün sonu olan sakitliyinin canlı təəssüratını elə yaratmışdır ki, dayanmış arabalar, kilim, xalçalarından ibarət əşyalarının dağınıqlığı gün boyu yorğun düşmüş insanların yuxuda olmasını dönə-dönə tamaşaçısına çatdırır.

Gecənin zülmət qaranlığını yaran ay işığının bütün mənzərə üzərində əks olunaraq məkanı nurlandırmasına baxmayaraq, rəssam ayın təsvirini verməmişdir. O, mənzərənin abu-havasına uyğun olaraq qarışıqlığı, yaşantıların ağırlığını vermək üçün göy üzünün kiçik bir hissəsini olduqca tutqun, qaraya çalan tünd yaşıl boyaların içinə atılmış daha kəskin ləkələrlə həll etmişdir. Arxa planda kiçik təpələrin bir fon kimi iştirak edərək daha işıqlı formada verilməsi ön səhnənin daha aydın görünməsi üçün seçilmiş uğurlu variantdır.

Hadisələr bir kənd yolunun üzərində, yolüstü, hələ məkana varmayan səhnənin tərənnümünü əks etdirir. Torpağın tünd qəhvəyi rəngi ilə arabaların qaraltılı görünüşü və əşyaların qarışan tonları arasında “dağıdılmış harmoniya” ekspressionist rəngkarlığın ənənəvi xüsusiyyətlərini əks etdirir.

Əsərdə yaxıların axaraq bir-biri ilə əlaqələndirilməsində rəssam daha çox tutqunluğu, kəskinliyi yaxın olan tonların qarşılaşdırılmasına üstünlük vermişdir. Sarı, qəhvəyi, narıncı kimi boyaların arasına atılmış çəhrayı, yaşıl kimi çalarlar əsərin ekspressiyasını gücləndirərək rənglərin dinamikliyində canlı mənzərə təəssüratını yaratmışdır. Mənzərədə məkana məxsus yaşantıların, həyatın çətin anlarının, yaşam tərzinin bütün ağırlıqlarını kətan üzərinə sığışdırmağı məharətlə bacaran rəssam sanki gecənin sükutunda, sakitliyində bu həmin səhnəni canlandırmaqla heç bir detalın nəzərdən qaçmasına və yaxud artıqlıq yaratmasına imkan verməmişdir.

Rəssamın günün müxtəlif vaxtlarına həsr edilmiş əsərləri əsasən gecə və səhər çağının təsviri ilə maraq doğurur. Və həmin əsərlərin mahiyyətində məkan və zaman əlaqələndirməsinin verilməsində mövzuya görə təzad yaradan hava mühitinin tərənnüm olunmasıdır. Bu mənada rəssamın “Səhər” adlı əsərində rastlaşdığımız məqam günün sübh çağına məxsus alışdığımız klassik təravət və ya parlaqlığı deyil, günəşin çıxmasına əngəl olan tutqun, buludlu səma və onun fonundakı mənzərə görüntüsü ilə qarşılaşırıq.

Əsas mənzərəyə aparan uzun yolun hər iki tərəfindən kənd mənzərəsinin yol boyu uzanan boşluqları, yaşıllıq və torpaqla əvəz olunan rəngarəngliyi, kiçik təpələri maraqlı formalarla əks etdirilmişdir. Ənənəvi mənzərə təsvirçiliyindən fərqli olaraq əsərdə rəssam elementlərin tam görünüşünün əksinə olaraq onların detal rənglərini verməklə daha çox təəssürat yaratmağı bacarmışdır. Bu təəssürat

mavi, ağ, göy, narıncı, qəhvəyi kimi tonların mükəmməl əlaqələndirilməsi ilə öz həllini tapmışdır.

Enli yol kəndin göründüyü təpəliklərə qədər uzanaraq gedir. Yolun sağ və solunda isə yaşayış olmayan, təbiətin real görünüşü canlandırılmışdır.

Fərman Qulamov səhərin görünüşündə havanın təravətini, onun sərin nəfəsini, təbiətin qoxusunu canlandırmaq üçün formal quruluşların sanki ilk baxışda insan şüuruna hakim kəsilən çalarlarının harmoniyasını nəzərə çatdırmağa çalışmışdır. Bunun üçün əsasən soyuq tonlardan istifadəyə xüsusi üstünlük verilmişdir.

Rəssamın qeyd edilən mənzərəsində mürəkkəb kompozisiya elementləri deyil, təbiətin real və sadə formaları tablonu ağırlıq yükündən azad edərək lirik-romantik atmosferi tamaşaçısına çatdırma cəhdi özünü xüsusi olaraq büruzə verir. Bunun üçün qarışıq rəng həllindən uzaq, dinamikanın, hərəkətliliyin deyil, hələ oyanmamış təbiətin özünün də bir qədər günə sakit, sərin başlayan işıqlandırması ilə uyğun şəkildə əlaqələndirmiş uzaq və yaxınlıq təəssüratının həssas tərənnümü diqqəti özünə cəlb edir. Səmanın boz rəngi ilə asfaltın çalarları arasındakı uyğunluq əsərin digər elementlərinin də yaxın rəng tonları arasında sədd yaradaraq onların aydın qavranılmasına imkan yaratmışdır.

Fərman Qulamovun eyniadlı digər əsəri isə birinci tablodan kəskin şəkildə fərqlənərək günün fərahlığını, parıltısını, işığını, səhərlə bərabər oyanan ruh yüksəkliyini tamaşaçısının nəzərinə çatdırır. Tabloda göy üzü ilə qarışan dağların ağ rəngi mavi ilə qovuşaraq ön səhnənin daha rəngarəng səhnəsinin lirikasını yaradır. Ümumiyyətlə, rəssam əsərdə ağ çalardan xüsusi olaraq istifadə etmişdir. Bunun səbəbi isə o havanın paklığının, səhərin təmiz nəfəsinin hökm sürdüyü abu-havanı əks etdirməyə çalışmasıdır.  Çox qədim kənd mənzərəsində rəssam adət edilən kiçik damlı köhnə evlər və yaxud başqa bir aidiyyəti detallardan o qədər də istifadə etməmişdir. O, burada əsasən təbiət motivlərinə, təbii şəraitin tərənnümünə geniş yer verməklə, sabaha açılan təbiətin xarakterik açıqlamasına çalışmışdır.

F.Qulamovun təbiət mənzərələrinə diqqət yetirdikdə əsas xüsusiyyətin onun sanki ön səhnədə əsas mənzərəyə gedən yolu ifadə edən bir qədər açıqlıq buraxmasıdır. Bununla rəssam sanki nəzərdə tutulmuş əsas mənzərənin bütün detallarının dəqiq qavranılması üçün bir seyrçi kimi özü də əvvəldən tamaşa etdiyi nöqtədən onu təsvirə almağı məqsədəuyğun hesab edirdi. Bu mənada qeyd edilən tabloda da öndə yol açan cığırın uzanaraq tamaşaçısını da öz arxasınca aparması olduqca həssas formalarla nəzərə çatdırılır.

Kompozisiyanın qurulmasında F.Qulamovun rəngkarlıq qanunlarının işıq-kölgə oyunu, rəng əlaqələndirməsi kimi nüanslarını diqqətlə nəzərdə tutsa da fərqli yanaşma tərzi, əsərlərdə element və detalların formallaşdırılaraq təqdim edilməsi rəssamın özünəməxsus yaradıcılığını şərtləndirir.

Formal rəngkarlıq anlayışı ilk növbədə məzmun nöqteyi-nəzərindən əsərin vizual görüntüsünü deyil, onun qanunlarını, prinsiplərini nəzərdə tutan məna və dəyəri əlaqələndirir. F.Qulamovun bu tipli əsərləri akademik rəngkarlıq üslubuna yaxın olsa da, təsvir elementlərinin realistik formanın əksinə olaraq, rənglərin, çalarların, uğurlu kompozisiyanın vasitəsilə formal quruluşlarla qeyri-adi ifadə tərzinə çatdırması bu yaradıcılıq istiqamətini şərtləndirən xüsusiyyətlər sırasına daxildir. Rəssamın yaratdığı formal kompozisiyalar bədii hisslərinin harmonik təcəssümü prinsipləri üzərində qurulmuşdur. Bu elə bir hissdir ki, rəssam təbiət səhnəsinin hər bir üzvünü onun rəngləri ilə xarakterizə etmək ehtiyacı hiss edir və istənilən tablo üzərində işə bu yaradıcılıq yolundan çıxaraq başlayır.

Qeyd edilən əsərdə yaşıl uzanan çığır boyu onu hər iki tərəfdən əhatələyən otluqlar, xırda çəmən gülləri, dağlar, dərələr, kiçik evləri xatırladan ağartılar olduqca lirik bədii ifadə tərzində təqdim edilmişdir.

F.Qulamovun digər bir "Səhər" adlı əsərində də oxşar bədii təsvir həlli ilə qarşılaşırıq. Uzanan yolun kənd mənzərəsinə aparan cığırın ardınca davam edən təsvir formasını rəssamın kənd mənzərələrinə həsr etdiyi əsərlərinin əksəriyyətinin səciyyəvi xüsusiyyəti kimi dəyərləndirmək olar.

Diqqət etdikdə rəssamın günün səhər çağının tərənnümündə parlayan, oyanan günəşin şüaları altında canlanan bir mühitin əksinə olaraq dumanlı, buludlu havanın əks olunduğunu görürük. Bununla rəssam günün hansısa bir zamanın klassik formalarla təcəssüm olunmasından qaçaraq, havanın, mühitin, buludlu günün təbiətə açılan səhərinin rənglərini canlandırmağa çalışmışdır. Belə ki, tək-tək olan uzun ağaclar, kiçik ağ daşlı evlər, uzaqdan görünən kiçik dağlar, yaşıllığın sərin səhər nəfəsi içindəki təravətini rəssam saf rənglərin harmoniyasında çatdırmağa çalışmışdır.

Səhərlə bərabər oyanan insanların kiçik təsvirləri onları günlük qayğıları hər gün səhərin açılması kimi günlə bərabər oyanış kimi bütünlükdə təbiət və insan əlaqələndirməsində verilmişdir.

Fərman Qulamovun məkan təsvirlərindəki əsas olanın nədən ibarət olduğunu müəyyənləşdirməli olsaq, əsərlər üzərində aparılan təhlillərin bu yaradıcılıq istiqamətinin əsasında məkanın psixologiyası, adi mənzərə təsvirçiliyindən uzaq, kompozisiyanın bütün detallarına qədər təbiət və insan yaşantısının əlaqələndirməsinin təqdim edilməsinin dayandığını iddia edə bilərik.

## Ədəbiyyat siyahısı:

1. Fərman Qulamov. "Rəngkarlıq", kataloq, 2009
2. Унковский А.А. «Живопись Вопросы колорта». Москва, 1980 г.
3. http://www.turkishpaintings.com/index.php?p=34&l=2&modPainters_artistDetailID=3360

**Гульназ Мадатова**

## Художественное выражение воспевания пространства в творчестве Фармана Гуламова

**Резюме:** В статье описаны основные характеристики талантливого азербайджанского художника Фармана Гуламова, основанные на пространственном описании. Многие из работ, которые являются уникальными для создания предметом художника, включили художественный анализ и повысили интерес к статье. К таким работам относятся «Пейзаж», «Ночь», «Утро», «Гунайдин», «Новый день» и другие. Спокойное звучание природного ландшафта, собственных естественных красок пространства - главная характеристика творчества Фармана Гуламова, основанного на ландшафте.

**Ключевые слова**: художник, пейзаж, пространство, цвет, оттенки, живопись.

**Gulnaz Madatova**

## Artistic expression of areal praise in Farman Gulamov's creativity

**Summary**: The article describes the main characteristics of the talented artist of Azerbaijan Farman Gulamov, based on the spatial description. Many of his works have been involved to artistic analysis and increased the interest of the article. Such works include "Landscape", "Night", "Morning", "Gunaydin", "New Day" and others. The calm and restful praise of the natural landscape, the area's natural colors are main characteristics of Farman Gulamov`s creativity, based on the landscape.

**Key words**: artist, landscape, area, color, shades, landscape

**Məqalənin redaksiyaya daxil olma tarixi: 25. 09. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**